Gülhüseyn Kazımlı
Vasif Quliyev

# Bülbülcan
## (Əbdülbaqi Zülalov)

Azərbaycan Milli
Kitabxanası

ŞƏRQ-QƏRB
BAKI 2017

**Xarrat Qulunun musiqi məktəbi** – on doqquzuncu əsrin məşhur musiqişünası, klassik Şərq muğamlarının kamil bilicisi, şair Xarrat Qulu Məhəmməd oğlu Yusifinin Şuşada yaratdığı məktəb. Dinə xidmət məqsədilə açılmışdı. Bura gözəl səsi olan gənclər cəlb edilir, məktəbdə musiqi məclisləri təşkil olunur, iştirakçılara dini mərasimlərin, xüsusilə də, məhərrəmlik təziyəsinin keçirilməsi üçün şəbih rollarında oynamaq, o cümlədən, Şərq musiqisinin əsaslarını, muğamları, Azərbaycan el havalarını düzgün oxumaq qaydaları öyrədilirdi. Bu yığıncaqlar getgedə sırf musiqi məclislərinə çevrilmiş, çalğı musiqisinin, xanəndəlik və vokal sənətinin inkişafında, Hacı Hüsü, Məşədi İsi, Qaraçı Əsəd, Şahsənəmoğlu Yusif, Dəli İsmayıl, Şahnaz Abbas, Əbdülbaqi Zülalov, Sadıqcan, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd kimi bir sıra ustad sənətkarların yetişməsində mühüm rol oynamışdır.

Xarrat Qulunun vəfatından sonra (1883) Kor Xəlifə adlı bir musiqişünas onun yolunu davam etdirərək Şuşada yeni musiqi məktəbi açmışdı.

**Kor Xəlifənin musiqi məktəbi** – On doqquzuncu əsrin sonlarında Şuşada fəaliyyət göstərmiş dini xarakterli musiqi məktəbi (1883–1893). Məktəb şəhərdə xəlifə vəzifəsində çalışan və dini işlərə nəzarət edən "Kor Xəlifə" ləqəbli Molla Əli Molla Kəlbəlioğlu tərəfindən açılmışdı. Burda dini elmlər geniş tədris olunsa da, Şərq şairlərinin və mütəfəkkirlərinin əsərləri, klassik muğamlar, onları oxumaq qaydaları, xanəndəlik sənətinin incəlikləri, musiqi nəzəriyyəsi və praktikası, muğam oxumaq, tar, kamança və digər musiqi alətlərində çalmaq da öyrədilir, klassik musiqi əhali arasında geniş təbliğ olunur, şagirdlər kamil bir musiqişünas kimi formalaşır, ədəbiyyatçı kimi yetişirdilər. Məktəbdə tez-tez poeziya və muğam müsabiqələri də təşkil edilir, daha çox istedadı olan gənclər üzə çıxarılır, onları həvəsləndirmək üçün mükafatlar verilirdi. Şagirdlər xalq və şəbih tamaşalarında, müxtəlif dini mərasimlərdə, xüsusilə, məhərrəmlikdə daha fəal iştirak edir, bu tədbirlərin daha təntənəli, təsirli və yüksək səviyyədə keçməsinə çalışırdılar.

On illik fəaliyyəti dövründə "Kor Xəlifə"nin məktəbi nəinki Qarabağda, hətta qonşu vilayətlərdə və İranda da tanınmışdı. Bu təhsil müəssisəsi Qarabağ əhalisinin mədəni inkişafına böyük təsir göstərmiş, Şuşanın Zaqafqaziyanın musiqi mərkəzinə çevrilməsində, vokal və çalğı musiqisinin tərəqqisində, bir çox ustad sənətkarların, musiqi xadimlərinin yetişməsində böyük rol oynamış, Azərbaycan musiqisinin inkişafına təkan vermişdir.

"Kor Xəlifə" vəfat etdikdən sonra (1893) məktəb sahibsiz qalmış, bir müddətdən sonra bağlanmışdı.

**Molla İbrahimin musiqi məktəbi** – On doqquzuncu əsrin sonlarında Şuşada Molla İbrahim adlı bir şəxsin açdığı musiqi məktəbi. Özündən əvvəl fəaliyyət göstərən musiqi məktəbləri kimi dini xarakter daşıyırdı. Təlim fars dilində keçilirdi. Bura on yaşından on iki yaşına qədər yalnız gözəl səsi, poeziyaya xüsusi həvəsi olan, həmçinin gələcəkdə məhərrəmlik təziyələrində kişi rolları ilə bərabər, qadın və qız rollarını da ifa etmək üçün yüksək səsə malik istedadlı uşaqlar götürülürdü. Məktəbdə klassik muğam dəstgahları, onların nəzəriyyəsi, quruluşu, tərkibi, ifası, eyni zamanda ərəb, fars, türk dilləri, dini mərasimlər, şəbihgərdanlıq, Hafiz, Nizami, Sədi, Xəyyam, Füzuli, Zakir, Seyid Əzim Şirvani, Tofiq Fikrət kimi Şərq şairlərinin qəzəlləri öyrədilirdi. Ümumiyyətlə götürdükdə, bütün diqqət dini misteriyalara – şəbih üçün müğənnilər yetişdirilməsinə verilirdi. Burunda və boğazda oxumaq qadağan idi, çünki bu, xoşagəlməz hal hesab olunurdu.

Qarabağın bir çox musiqi xadimləri, muğam ustaları, o cümlədən, Mehralıoğlu Bahadır, Bülbül və başqa sənətkarlar ilk musiqi təhsillərini Molla İbrahimin məktəbində almışlar. Məktəb iyirminci yüzilliyin təxminən ikinci onilliyinin sonlarına qədər fəaliyyətini davam etdirmişdir.

**"Xanəndələr məclisi"** – On doqquzuncu yüzilliyin sonlarında, məşhur musiqi xadimi Xarrat Qulu Yusifinin vəfatından sonra (1883) böyük muğam ustası Hacı Hüsünün yaxından iştirakı ilə musiqişünas-alim Mir Möhsün Nəvvab Qarabağinin Şuşada təşkil etdiyi musiqi məclisi. Burda əsas məqsəd yeni xanəndələr nəsli yetişdirmək, xanəndəlik sənətini xalq arasında geniş yaymaq və klassik Azərbaycan muğamlarını daha da inkişaf etdirmək idi. Bəzən "Xanəndələr ittifaqı" adlandırılan bu məclis uzun illər həm də musiqi məktəbi rolunu oynamışdı.





Məclisdə vaxtaşırı musiqi yarışları, muğam müsabiqələri keçirilir, gənc istedadlar üzə çıxarılırdı. Məşədi İsi, Keştazlı Haşım, Şahsənəmoğlu Yusif, Dəli İsmayıl, Malıbəyli Cümşüd, Şahnaz Abbas, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Malıbəyli Həmid, Xanlıq Şükür, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev kimi sənətkarlar məclisin yetirmələri və eyni zamanda əsas üzvləri idilər.

"Xanəndələr məclisi" Azərbaycan musiqisinin və muğam sənətinin inkişafında, yeni xanəndələr və musiqiçilər nəslinin yetişməsində mühüm rol oynamışdır.

**Xanəndəlik sənəti** – Azərbaycan xalq musiqisinin geniş yayılmış sahələrindən biri. Qədim tarixə malikdir. Xanəndəlik sənətinin formalaşmasında Şuşa şəhərinin müstəsna rolu var. Qarabağ xanəndələri burda muğam sənətini daha da inkişaf etdirmiş,

Qarabağda, Şirvanda, Gəncədə müxtəlif konsertlərdə, toy şənliklərində iştirak edən Əbdülbaqi artıq bir xanəndə kimi tanınır və sevilirdi. Tiflis mühiti isə onun inkişafı üçün olduqca əhəmiyyətli bir rol oynayırdı. O dövrlərdə çarizmin Qafqazda yeritdiyi siyasətin mərkəzində Tiflis dayanırdı. Zaqafqaziyanın bütün əyalətlərindən bura sənətkarlar, yazıçı və şairlər toplaşırdı. Tiflis mədəni, ictimai və siyasi mərkəz idi. Burda teatr, mətbəə açılmış, qəzet və jurnallar çap edilməyə başlamışdı.

Yanvarın 14-ü gürcu teatrının yaranması tarixi kimi qeyd edilir. 1850-ci il yanvarın 14-də gürcü teatrının yaranması günü ona görə qeyd edilir ki, həmin gün Georgi Erustavinin ilk teatr tamaşası göstərilmişdi.

Belə bir səraitdə bir çox xarici ölkələrdən, o cümlədən, İtaliyadan opera müğənniləri Tiflisin teatr salonlarında konsertlər verirdilər. Azərbaycanlılardan və digər millətlərdən olan musiqiçilər də Tiflisin teatr və musiqi həyatında yaxından iştirak edirdilər.